# "ZƏLİMXAN YAQUB ƏDƏBİ DÜŞÜNCƏDƏ"

*(IV cild)*

**Mənə elə gəlir ki, bu adı oxuyanda, bu adı xatırlayanda və ümumiyyətlə, Zəlimxan Yaqub ismini eşidəndə hər kəsin içindən kövrək bir təəssüf hissi gəlib keçir. İnan ki, mən bunu təkcə Zəlimxan Yaqubu şair kimi, insan kimi şəxsən tanıyıb ziyarətçisi olan, özünə doğma bilən bir insan kimi vurğulamıram.**

Və bilirəm ki, onu şəxsən tanıyan da, tanımayan da ekrandan, efirdən, hətta məclislərdə səsini eşidəndə mütləq dayanıb və yaxud da yerindəcə sakit oturub onu dinləyirdi. Çünki Zəlimxan Yaqub bulaq idi, qaynayırdı... sözü sözün dalınca öz axarıyla süzülüb gəlirdi. Şeir oxuyanda da, fikir söyləyəndə də çaşdığını, dolaşdığını görən olmadı Zəlimxan Yaqubun.

O bir Allah vergisiydi bu millət üçün. Ona görə də xalq sevgisi onu gül-çiçək kimi qoynuna almışdı. Və görünür Allah bu sevginin nə vaxtsa səmtini dəyişə biləcəyini nəzərə alıb onu dərgahına tez apardı.

***Amma cismən bizdən ayrılan xalqın şairi söz-söhbətləri ilə, yaradıcılığı ilə, sərgüzəştləri ilə, gördüyü savab işlərlə və ən vacibi poeziya yatırımı ilə əbədi ömür qazandı. Bu gün Zəlimxan Yaqubu şəxsən görməyənlər, onunla qarşılaşmayanlar həmin poeziya yatırımından gen-bol istifadə edir. Və deməli, Zəlimxan Yaqub yaşayır. Onu yaşadanlardan biri də həyat yolunda zaman-zaman onunla birlikdə olmuş və söz incilərini bu gün sevgiylə, həm də ustalıqla toplayıb araya-ərsəyə gətirən əməkdar mədəniyyət işçisi Musa Nəbioğludur. Elə indi barəsində söhbət açmaq istədiyim "Zəlimxan Yaqub ədəbi düşüncədə" (IV cilid) kitabını tərtib edən, həm də ona redaktorluq edən Musa Nəbioğludu. Dəfələrlə Musa müəllimlə ustad barəsində söhbətlərimiz olub. Hər dəfə də xalqın şairinin vaxtsız ölümündən onun necə qovrulduğunu açıq-aşkar hiss etmişəm. Onu da duymuşam ki, Musa müəllim hər yerdə Zəlimxan Yaqub izini, Zəlimxan Yaqub sözünü axtarır. Bütün gücüylə çalışır ki, ustadın bir vergülü də olsa, diqqətdən kənarda qalmasın.***




Bax, bu fədakarlıqla xalq şairi Zəlimxan Yaqubun həm öz yaradıcılığı, həm də onun barəsində zaman-zaman deyilmiş, yazılmış fikirləri kitablaşdıran Musa Nəbioğlu artıq ustadın barəsində IV cilidi oxuculara təqdim edib. Yaxın günlərdə Musa müəllimlə görüşdük və o, məni növbəti dəfə sevindirdi.

Və bildirdi ki, artıq IV cilid ortadadı, buyur, sənin üçün də gətirmişəm.

Kitabı maraqla gözdən keçirdim. Burada Azərbaycanın dəyərli imza sahibləri Anarın, akademik Nizami Cəfərovun, professorlar Tofiq Hacıyev, Qəzənfər Paşayev, Qəzənfər Kazımov, eləcə də dəyərli ziyalılarımız Ramiz Məmmədov, Ramiz Bəkirov, Sərvaz Hüseynoğlu, jurnalist həmkarlarım Şəfəq Nasir, Sevinc Mürvətqızı, Fəridə Rəhimli, Xeyrəddin Qoca, Asif Mərzili, şairlərdən Adil Cəmil, Əli Rza Xələfli, Anar Amin, eləcə də digər müəlliflərin yazıları yer alıbdı. Bu arada onu da vurğulayım ki, kitaba giriş sözünü Musa Nəbioğlu, ön sözünü isə millət vəkili Nizami Cəfərov yazıbdı. Həmçinin bu kitabda mənim özümün də ustad haqqında yazdığım beş məqalə yer alıbdı.

**Hər bir təqdim olunan yazı xalq şairi Zəlimxan Yaqubu ayrı-ayrı bucaq altında oxucuyla qarşılaşdırır. Məqalələrdən aydın şəkildə görünür ki, müəlliflər xalq şairinə sonsuz sevgilərini açıq ürəklə, sözə, fikrə qənaət etmədən sərgiləyiblər. Düşünürəm ki, xalqın şairinin ölməz ruhuna bu kitab növbəti bir abidədir. Mən ustadımın ruhu qarşısında baş əyməklə əməkdar mədəniyyət işçisi Musa Nəbioğluna da böyük ehtiramımı dilə gətirirəm. Və bir də düşünürəm ki, elə iki gün öncə medianın yaydığı xəbər tezliklə gerçəkləşəcək. Yəni ustadın doğulduğu Kəpənəkçi kəndində onun xatirə muzeyinin tikilməsi üçün Gürcüstan hökumətinin ayırdığı torpaq sahəsində ustadın adına layiq muzey istifadəyə veriləcək. Bu və digər kitablar da o muzeyin eksponatlarından olacaq.**

**Əbülfət MƏDƏTOĞLU**

Ədalət.- 2020.- 21 fevral. S. 3.